# Qəlblərdə sevincə, gözlərdə nura çevrilən ömür



**İnsan üçün dünyada göz nurundan qiymətli heç nə yoxdur, ilahinin bəxş etdiyi bu xoşbəxtlik ömürlərə işıq saçır, həyatın gözəlliklərini seyr etməyə imkan yaradır. Həyatını və elmi fəaliyyətini Azərbaycanda göz xəstəliklərinə qarşı mübarizəyə həsr etmiş görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə uca taxt qurmuş, tibb elmində əldə etdiyi nailiyyətlərlə ölkəsini dünyaya tanıtmışdır.**

Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verib. O, oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə nəinki keçmiş SSRİ məkanında, həmçinin, dünya miqyasında şöhrət qazanmışdır. Görkəmli alimin elmi-pedaqoji və ictimai fəaliyyəti yeni həkim nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir. Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümürespublikamızda, o cümlədən, Füzuli rayonunda geniş qeyd olundu.

Horadiz şəhərində yerləşən Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 99-cu ildönümünə həsr olunmuş tədbirdə rayon icra hakimiyyətinin nümayəndələri, mərkəzi xəstəxananın həkimləri və tibb işçiləri iştirak etdilər. Əvvəlcə rayon icra hakimiyyətinin başçısı Alı Alıyev bir qrup həkimlə ulu öndər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, xatirəsini ehtiramla andılar. Sonra Zərifə xanım Əliyevanın fəaliyyətindən bəhs edən kitab sərgisinə baxış keçirildi.

Tədbirdə rayon rəhbəri Alı Alıyev çıxış edərək bildirdi ki, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsi kimi çox qiymətlidir. Görkəmli alimin traxoma xəstəliyinin müalicəsi sahəsində təklif etdiyi müalicə metodları respublikamızda tətbiq edilib və ölkəmiz bu ağır xəstəlikdən xilas olub.

Tədbirdə çıxış edən rayon ağsaqqallar şurasının sədri Zülfüqar Əliyev, oftalmoloq Şakir Xudiyev və başqaları Zərifə xanım Əliyevanın keçdiyi mənalı həyat yolundan, oftalmologiya elminin inkişafına verdiyi töhfələrdən, yüksəkixtisaslı tibbi kadrların hazırlanmasındakı xidmətlərindən danışdılar. Sonra Zərifə xanım Əliyevanın fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildi.

**Salman ALIOĞLU,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 30 aprel.- S. 14.**